# VI BÖLMƏ.
# DAVAMLI İNKİŞAF, AZƏRBAYCANDA NƏQLİYYAT VƏ LOGİSTİKA

**UOT 330.34; 330.35**

***Malik Marif oğlu MÜRSƏLOV***
***Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı***

## DAVAMLI İNKİŞAF: MAHİYYƏTİ VƏ PRİNSİPLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi -** davamlı inkişafın mahiyyətinin araşdırılması və ona təsir edən prinsiplərin müəyyən edilməsidir.

**Tədqiqatın metodologiyası -** sistemli yanaşma, müqayisəli təhlil metodları.

**Tədqiqatın nəticələri -** davamlı inkişafın mahiyyətini daha dolğun ifadə edən yeni tərifi verilmiş, davamlı inkişafa nail olunmasına imkan və zəmin yaradan prinsiplər təklif edilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti** - tədqiqatın nəticələri və irəli sürülən təkliflər davamlı inkişafın mahiyyətinin daha obyektiv müəyyənləşdirilməsinə imkan verə, davamlı inkişafa nail olmaq üçün tədbirlərin hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - davamlı inkişafın mahiyyətinin daha dolğun ifadə edilməsinin zəruriliyi əsaslandırılır, “davamlı inkişaf” anlayışının məzmununu dəqiq ifadə edən yeni tərifi verilir, davamlı inkişafa nail olmaq üçün həyata keçirilməsi zəruri olan prinsiplər təklif olunur.

***Açar sözlər: davamlı inkişaf, mahiyyəti, məqsədi, prinsipləri, əhəmiyyəti.***

### *Giriş*

Davamlı inkişaf - bütün dünya ictimaiyyətinin tanıdığı və qəbul etdiyi, müasir cəmiyyətin tələbatlarının ödənilməsi üçün həyata keçirilən mövcud fəaliyyətin gələcək nəsillərə zərər verməyəcəyi, əksinə, inkişaf üçün daha əlverişli şərait yaradacağı konsepsiyadır. Bu konsepsiyanın adı ilk dəfə 1987-ci ildə BMT-nin Ətraf Mühit və İnkişaf Komissiyasının “Ümumi gələcəyimiz” adlı hesabatında qeyd edilmişdir. Müasir dövrdə “davamlı inkişaf” anlayışı adı altında ətraf mühitə ziyan vurmayan, sosial problemlərin həllinə imkan yaradan, ekoloji, iqtisadi və sosial inkişaf arasında tarazlığı təmin edən iqtisadi artım nəzərdə tutulur.

Davamlı İnkişaf Gündəliyi 2015-ci ildə BMT tərəfindən hazırlanmışdır və 2030-cu ilə qədər cəmiyyətin səy göstərməli olduğu, həyata keçirilməsi ilə hər bir ölkənin və subyektin fərdi şəkildə məşğul ola biləcəyi və etməli olduğu əsas problemlərini əks etdirən yaxın hədəfləri ehtiva edir. Bu sənəddə qeyd edilir ki: “Davamlı İnkişaf Məqsədləri bütün ölkələrdən - kasıb, zəngin və orta inkişaf etmiş ölkələrdən gələn bir növ fəaliyyətə çağırışdır. Bu, planetimizin rifahını və qorunmasını yaxşılaşdırmaq məqsədi daşıyır. Hökumətlər başa düşürlər ki, yoxsulluğa son qoymaq üçün tədbirlər iqtisadi artımın təmin edilməsi və təhsil, səhiyyə, sosial müdafiə, məşğulluq, eləcə də iqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin mühafizəsi sahələrində bir sıra məsələlərin həlli istiqamətində səylərlə paralel getməlidir” [1].

BMT tərəfindən davamlı inkişafın məqsədləri aşağıdakı kimi müəyyən edilmişdir:
- yoxsulluğun aradan qaldırılması;
- aclığın ləğvi;
- yaxşı sağlamlıq və rifah;
- keyfiyyətli təhsil;
- gender bərabərliyi;

- təmiz su və sanitariya;
- sərfəli və təmiz enerji;
- layiqli iş və iqtisadi artım;
- sənayeləşmə, innovasiya və infrastruktur;
- bərabərsizlikləri azaltmaq;
- davamlı şəhərlər və icmalar;
- məsul istehlak və istehsal;
- iqlim dəyişikliyi ilə mübarizə;
- dəniz ekosistemlərinin qorunması;
- sülh, ədalət və güclü institutlar;
- davamlı inkişaf üçün tərəfdaşlıq [1].

Davamlı inkişafın sadalanan məqsədlərindən göründüyü kimi onların həyata keçirilməsi biznes fəaliyyətinin təşkili və həyata keçirilməsindən bilavasitə asılıdır. Dünyanın inkişaf etmiş 36 ölkəsini özündə birləşdirən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində biznes fəaliyyətlərinin rolunun genişləndirilməsi üçün aşağıdakı istiqamətlərdə tədbirləri məqsədəuyğun hesab edir:

- birbaşa xarici investisiyaların həcminin artırılmasını;
- biznes fəaliyyətini birgə maliyyələşdirmənin həyata keçirilməsini;
- davamlı inkişafa rəsmi dəstəyin verilməsini;
- sosial məqsədlərə investisiyaların artırılmasını;
- məsuliyyətli iş davranışının həyata keçirilməsini [2].

Davamlı İnkişaf üzrə Ümumdünya Biznes Şurası (WBCSD) da davamlı inkişaf məqsədlərinin reallaşdırılması üçün biznesin və investorların əhəmiyyətli rol oynadığını geyd edərək göstərir ki, məhz biznes yeni iş yerləri, maliyyə axınları, yeni texnologiyalar və yeniliklər yaradaraq iqtisadi inkişafın əsas aparıcısı rolunu oynayır.

Təbiidir ki, davamlı inkişafa nail olmaq üçün onun mahiyyəti və həyata keçirilməsi prosesində riayət olunmalı olan prinsiplər düzgün müəyyənləşdirilməli, mənimsənilməli və nəzərə alınmalıdır.

**Davamlı inkişafın mahiyyəti**

Davamlı inkişaf ümumiyyətlə gələcək nəsillərin ehtiyaclarının ödənilməsi imkanlarına ziyan gətirməmək şərti ilə onların mövcud ehtiyaclarına cavab verən inkişaf kimi müəyyən edilir. Araşdırmalar göstərir ki, hal-hazırda davamlı inkişafın 60-dan çox tərifi vardır və yeni-yeni təriflər irəli sürülür. Bu, davamlı inkişafın müxtəlif aspektlərini özündə birləşdirən konsepsiyanın özünün mürəkkəbliyindən, eləcə də, cəmiyyətin bu sahə ilə məşğul olan təbəqələrinin baxışlarının müxtəlifliyindən irəli gəlir.

V.A.Kretinin, N.V.Çaykovskayanın və E.S. Bodryaşovun fikrincə, davamlılıq sosial-iqtisadi sistemin dinamik tarazlığı saxlamaq qabiliyyətidir. L.İ.Abalkin hesab edir ki, sosial-iqtisadi sistemin sabitliyi sistemin təhlükəsizliyi, sabitliyi, etibarlılığı, bütövlüyü və möhkəmliyi ilə bağlıdır. A.A.Şalmuyevin fikrincə davamlı regional inkişaf əhalinin layiqli rifah səviyyəsini və iqtisadi sistemin ətraf mühitlə dinamik tarazlığını (yerli ekosistemin iqtisadi imkanları nəzərə alınmaqla fəaliyyət göstərməsini) təmin edə biləcək regional idarəetmə modelinin formalaşdırılmasını nəzərdə tutur. Sosial-iqtisadi sistemə münasibətdə ən ümumi formada davamlılıq sistemin nisbətən tez ilkin vəziyyətinə qayıtmaq və ya inkişaf trayektoriyasında yeni, daha yüksək nöqtəyə çatmaq qabiliyyəti kimi müəyyən edilə bilər [3].

Davamlı inkişaf problemlərinə həs edilmiş ədəbiyyatların araşdırılması göstərir ki, bu anlayışın tərifinə müxtəlif nöqteyi-nəzərdən yanaşılır. Bəzi müəlliflər davamlı inkişafın mahiyyətini ekoloji, bəziləri sosial, digərləri sosial-ekoloji, bir qrup alimlər sosial-iqtisadi, ekoloji-iqtisadi və s. nöqteyi-nəzərdən şərh edirlər.

Davamlı inkişafa sosial yanaşmanın tərəfdarları ona cəmiyyətin tələbatının daha dolğun ödənilməsi, sosial məqsədlərə nail olunması, insanların rifah halının yaxşılaşması, gələcək nəsillər

üçün potensial imkanların artırılması kimi baxırlar. Məsələn, davamlı inkişafa sosial aspektdən yanaşan U.Q. Qusmanov və L.M. Kilkiç onu həm müəyyən bir ərazinin vətəndaşlarının rifahının artmasına, həm də gələcək nəsillər üçün potensialının artmasına səbəb olan müxtəlif münasibətlərdə və ictimai həyatın sahələrində müsbət dəyişikliklərə yönəlmiş inkişaf adlandırırlar [4].

Davamlı inkişafa sosial-ekoloji aspektdən yanaşanlar qarşılıqlı əlaqədar olan iki əsas məqsədə -sivilizasiyanın sağ qalmasına və biosferin qorunmasına xüsusi diqqət yetirirlər. Bu yanaşmanı dəstəkləyən S.N. Baburinin, M.A.Muntyanın və A.D. Ursulun fikrincə, davamlı inkişaf qlobal səviyyədə idarə olunan sistem-balanslı, ətraf mühiti məhv etməyən, sivilizasiyanın qeyri-müəyyən uzun müddət mövcudluğuna və təhlükəsizliyə təminat verən inkişafdır [5].

A.S.Kleymenova hesab edir ki, iqtisadi artıma sosial-iqtisadi yanaşma, inkişafın texnogen növünün davamlı tipə dəyişdirilməsidir [6].

D.V.Yurkov davamlı inkişafı təbiətdən istifadənin ekoloji-iqtisadi tarazlığı və təbii sərvətlərin keyfiyyət vəziyyətinin qorunması kimi şərh edir [7].

Davamlı inkişafa ekoloji cəhətdən yanaşanlar əsas diqqəti onun ekoloji aspektinə yönəldir və təbii ekoloji sistemin bütövlüyünün təmin edilməsisnin vacibliyini vurğulayırlar. Davamlı inkişafa ekoloji baxımdan yanaşan Duran, C.D., Gogan, L.M., Artene, A., Duran,V. onu ətraf mühiti qoruyan inkişaf kimi xarakterizə edirlər, “ona görə ki, davamlı ətraf mühit davamlı inkişafı təmin edir” [19].

Davamlı inkişafa sosial-iqtisadi cəhətdən yanaşanlar bu prosesdə ekoloji amillərin rolunu inkar etməsələr də, cəmiyyətin sosial tələbatlarının ödənilməsində əsas rolun iqtisadi artıma məxsus olduğunu qeyd edirlər. Bu mövqeyi dəstəkləyən P.Varenin və V. Scottun fikrincə davamlı inkişaf, resursları səfərbər edən, investisiyaların istiqamətini müəyyən edən, texnologiyaların inkişafına diqqət yetirən və bununla da insanların ehtiyaclarının və istəklərinin təmin olunma potensialını artıran dəyişiklik prosesidir [20].

Davamlı inkişafa ekoloji-iqtisadi yanaşmanın tərəfdarlarının fikrincə bu prosesdə iqtisadiyyatla ətraf mühit arasında tarazlığın yaradılmasına, ekoloji cəhətdən təhlükəsiz idarəetmənin həyata keçirilməsinə xüsusi diqqət yetirilməlidir. Davamlı inkişafa ekoloji-iqtisadi cəhətdən yanaşan S.Sterlingin fikrincə iqtisadiyyat və ətraf mühitin yeni şəkildə uzlaşdırılması bəşəriyyətin uzunmüddətli davamlı inkişafını təmin edəcək inkişafdır [21]. Qeyd edildiyi kimi, davamlı inkişafın mahiyyətinə dair digər təriflərə də rast gəlinir [8; 9; 10; 11; 12; 13; 22].

“Davamlı inkişaf” anlayışı meydana gəldiyi gündən əhəmiyyətli dəyişikliklərə məruz qalmış və bu gün davamlı inkişaf konsepsiyasında formalaşmışdır. Bu konsepsiyaya davamlılığın iqtisadi, ekoloji və sosial komponentləri daxildir, uzunmüddətli perspektivdə iqtisadiyyatın artımının əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin edən məqsədlərə nail olunmasına yönəldilməsini nəzərdə tutur. Ancaq göründüyü kimi, davamlı inkişafın mahiyyəti, bu prosesdə hansı xüsusiyyətin üstünlük təşkil etməsi ilə bağlı həlelik konsensusa gəlmək mümkün olmamışdır və bu istiqamətdə tədqiqatlar davam etməkdədir. Bizim fikrimizcə, davamlı inkişafda hər bir ölkə maraqlı olsa da, bu prosesdə hansı xüsusiyyətlərə üstünlük verilməsindən asılı olmayaraq, davamlı inkişafa nail olunması əsasən konkret ölkədə mövcud olan iqtisadi imkanlardan və şəraitdən asılıdır. Ona görə də, hesab edirik ki, “davamlı inkişaf” konsepsiyasının mahiyyəti, məzmunu müəyyən edilərkən iqtisadi komponentlərə üstünlük verilməlidir. Bu nöqteyi-nəzərdən, fikrimizcə, davamlı inkişafa aşağıdakı tərifin verilməsi məqsədəuyğun olardı: davamlı inkişaf- konkret ölkədə mövcud olan iqtisadi, sosial və ekoloji imkanlardan maksimum istifadə əsasında iqtisadi artıma nail olmaqla əhalinin rifah halının yaxşılaşdırılmasına şərait yaradan inkişafdır. Hesab edirik ki, bu tərif “davamlı inkişaf” konsepsiyasının mahiyyətini daha dolğun ifadə edir.

**Davamlı inkişafın prinsipləri**

Davamlı inkişaf konsepsiyasının mahiyyətinə və məzmununa müxtəlif yanaşmaların olmasına baxmayaraq hamı tərəfindən qəbul edilir ki, onun əsas məqsədi insanların tələbatlarının, istəklərinin, ehtiyaclarının mümkün qədər tam ödənilməsinə nail olmaqdan ibarətdir. Davamlı inkişafa

nail olmaq da bir prosesdir və təbiidir ki, hər bir prosesin həyata keçirilməsində müəyyən, müvafiq prinsiplərə riayət olunması tələb edildiyi kimi, davamlı inkişafa nail olunması da müəyyən prinsiplərin nəzərə alınmasını özündə ehtiva edir.

Araşdırmalar göstərir ki, davamlı inkişaf konsepsiyasının prinsiplərinə dair müxtəlif yanaşmalar və təsnifatlar mövcuddur. A.D.Moiseyev və İ.F.Narijniy davamlı inkişaf konsepsiyasının aşağıdakı prinsiplərini fərqləndirirlər:

- bəşəriyyət gələcək nəsilləri ehtiyaclarını ödəmək imkanından məhrum etmədən, bu gün yaşayan insanların ehtiyaclarını ödəmək üçün inkişafı uzunmüddətli və davamlı edə bilər;
- mövcud təbii ehtiyatlardan istifadə sahəsində məhdudiyyətlər nisbidir. Məhdudiyyətlər elmin və sosial təşkilatın mövcud və gələcək inkişafının vəziyyətindən, eləcə də, insan fəaliyyətinin biosferə təsirinin nəticələrindən bilavasitə asılıdır;
- bütün insanların əsas ehtiyacları ödənilməlidir və hamıya daha firavan yaşamaq ümidlərini reallaşdırmaq imkanı yaradılmalıdır. Bunlara nail olmadan uzunmüddətli və davamlı inkişaf mümkün deyildir. Yoxsulluq dünyada adi hala çevrilmiş ekoloji və digər fəlakətlərin əsas səbəblərindən biridir;
- böyük pul və maddi vəsaitlərə malik olanların həyat tərzini planetin ekoloji imkanları ilə, xüsusən də enerji istehlakı ilə uzlaşdırmaq lazımdır;
- əhali artımının ölçüsü və sürəti Yerin qlobal ekosisteminin dəyişən istehsal potensialına uyğun olmalıdır [13].

Fikrimizcə, hər hansı prinsip irəli sürülərkən onun həyata keçirilməsi imkanları nəzərə alınmalıdır. A.D.Moiseyev və İ.F. Narijniy “böyük pul və maddi vəsaitlərə malik olanların həyat tərzini planetin ekoloji imkanları ilə, xüsusən də enerji istehlakı ilə uzlaşdırmaq lazımdır” prinsipini irəli sürərkən onun reallaşdırılması imkanını nəzərə almayıblar. Bunu necə etmək olar? Ümumiyyətlə bu mümkündürmü, kim könüllü olaraq buna razı olacaq? Bu insan haqlarının pozulmasına səbəb olmazmı?

Hesab edirik ki, qeyd edilən müəlliflərin: “əhali artımının ölçüsü və sürəti Yerin qlobal ekosisteminin dəyişən istehsal potensialına uyğun olmalıdır” prinsipi də ziyanlıdır və hamı tərəfindən qəbul edilə bilməz. Bu prinsipin tətbiqi inzibati yolla əhali artımının qarşısının alınmasını nəzərdə tutur ki, bu da birbaşa insan haqlarının pozulmasıdır. Fikrimizcə, bir qrup insanın mənafeyi naminə digərlərinin mənafeyinə toxunmaq məqbul yol hesab edilməməlidir.

A.Oleynikova davamlı inkişaf prinsiplərini birinci və ikinci dərəcəli olmaqla iki növə ayırır.

O, birinci dərəcəli prinsiplərə aşağıdakıları aid edir:

- gələcək qarşısında məsuliyyət prinsipi;
- gələcək qarşısında məsuliyyət prinsipi və ondan irəli gələn inkişaf imkanları hüququ və müxtəlif nəsillərin ehtiyaclarının ödənilməsi prinsipi;
- hər bir insanın təbiətlə harmoniyada sağlam və fəal yaşamaq, ekoloji cəhətdən təmiz və əlverişli mühitdə yaşamaq hüququ;
- iqtisadiyyat və ətraf mühit arasında tarazlığın təmin edilməsi və ya biosferin mühafizəsi prinsipi;
- ədalət prinsipi.

Müəllif aşağıdakıları davamlı inkişafın ikinci dərəcəli prinsipləri hesab edir:

- ətraf mühitin qorunması prinsipi;
- sosial-iqtisadi inkişaf prinsipi;
- təhsilin yaxşıllaşdırılması və ideoloji dəstək prinsipi;
- bütün xalqların mədəniyyətlərinin qorunub saxlanması prinsipi [14].

Fikrimizcə, davamlı inkişaf konsepsiyasının özündə üç əsas aspekti -iqtisadi, sosial və ekoloji-birləşdirdiyi nəzərə alınarsa “ətraf mühitin qorunması prinsipi”ni birinci dərəcəli prinsiplər sırasına aid etmək daha məqsədəuyğun olardı.

A.D.Şakirovun fikrincə, davamlı inkişafın əsas prinsipi cəmiyyətin inkişafının sosial-iqtisadi, humanitar, hüquqi və ekoloji aspektlərinin inteqrasiyasıdır. A.D.Şakirov öz fikrini onunla əsaslandırır ki, bu prinsip Stokholm və Rio-de-Janeyra Bəyannaməsi, Ümumdünya Təbiət Xartiyası, Yer Xartiyası, eləcə də müxtəlif çoxtərəfli sazişlər kimi beynəlxalq sənədlərdə öz əksini tapmışdır [15]. Bununla yanaşı o, aşağıdakıları da davamlı inkişafın prinsiplərinə aid edir:

- təbii sərvətlər üzərində süverenlik prinsipi. A.D.Şakirov ölkələrin öz təbii sərvətlərini beynəlxalq hüquq çərçivəsində işlətmək hüququnun beynəlxalq münasibətlərdə əsas prinsiplərdən biri olduğunu əsas götürərək bu prinsipi irəli sürür və fikrimizcə haqlıdır;
- bərabərlik prinsipi. Onun fikrincə, bu prinsip iki normanı- nəsillərarası və nəsillərdaxili-nəzərdə tutur. Müəllif bu prinsipin əhəmiyyətini qeyd edərkən Rio-de-Janeyra Bəyannaməsinin 3-cü prinsipinə və Brundland Komissiyasının (Brundland Commission) hesabatına əsaslanır. Bu sənədlərdə qeyd edilir ki: "Nəsillərarası bərabərlik indiki və gələcək nəsillərin inkişafı və ətraf mühitin mühafizəsi ehtiyaclarını eyni dərəcədə nəzərə alan inkişaf hüququnun həyata keçirilməsi ilə təmin edilməlidir. Nəsillərdaxili bərabərlik eyni nəsildə olan bütün ölkələrin inkişaf üçün bərabər imkanlara malik olmasını nəzərdə tutur" [16]. Fikrimizcə, bu prinsipə əməl olunması davamlı inkişafın təmin olunmasna əsaslı şəkildə müsbət təsir edə bilər;
- ümumi olsa da, fərqli məsuliyyət prinsipi. Bu prinsipi irəli sürərkən A.D.Şakirov yenə də Rio-de-Janeyra Bəyannaməsinin 7-ci prinsipinə istinad edir. Bu prinsipdə qeyd edilir ki: "Qlobal ekoloji deqradasiyada müxtəlif rollarına görə dövlətlər ümumi, lakin fərqli məsuliyyət daşıyırlar" [15]. Məlumdur ki, inkişaf etmiş dövlətlər qlobal ekoloji böhranın yaranmasında özlərinin daha çox məsuliyyət daşıdıqlarını, iqtisadi cəhətdən kasıb olan ölkələrin davamlı inkişafına hərtərəfli maliyyə-iqtisadi yardımların göstərilməli olduğunun vacibliyini qeyd etsələr də, bu sahədə reallıqda ciddi irəliləyişlər müşahidə edilmir. Ona görə də, fikrimizcə, qeyd edilən prinsipin qlobal miqyasda davamlı inkişafa müsbət təsir göstərə biləcəyi problematik görünür.

2000-ci ilin sentyabr ayının 7 və 8-də Hannover şəhərində Avropa Şurasının Yüksək Vəzifəli Şəxslər Komitəsi tərəfindən "Avropa qitəsinin davamlı məkan inkişafının əsas prinsipləri" irəli sürülmüşdür. Hüquqi əsası olmayan, könüllü iştirakı nəzərdə tutan bu sənəddə qeyd edilir ki: "Əsas Prinsiplər insan hüquqlarının və demokratiyanın məkan ölçüsünə diqqət yetirir. Onların vəzifəsi Avropa Şurasının bütün üzv dövlətlərində insanların məqbul həyat şəraitinə nail olmağa kömək edəcək məkan inkişafı tədbirlərini müəyyən etməkdir ki, bu da Avropanın regionlarında və şəhərlərində demokratik strukturların sabitləşməsi üçün zəruri şərtdir" [17]. Qeyd edilən sənəddə Avropa üçün davamlı məkan inkişafı siyasətinin əsas prinsipləri kimi aşağıdakılar irəli sürülür:

- regionların daha çox balanslaşdırılmış sosial-iqtisadi inkişafı və onların rəqabət qabiliyyətinin artırılması vasitəsilə ərazi harmoniyasının təmin edilməsi;
- şəhər funksiyalarının yaratdığı inkişafın təşviqi və şəhər və kənd arasında əlaqələrin təkmilləşdirilməsi;
- nəqliyyatın əlçatanlığına daha çox balanslaşdırılmış şəraitin yaradılması;
- informasiya və biliyə çıxışın inkişafı;
- ətraf mühitə zərərin azaldılması;
- təbii ehtiyatların və təbii irsin çoxaldılması və mühafizəsi;
- mədəni irsin çoxalması inkişaf amili kimi;
- enerji ehtiyatlarının təhlükəsiz çıxarılmasının inkişafı;
- yüksək keyfiyyətli davamlı turizmin təşviqi;
- təbii fəlakətlərin nəticələrinin məhdudlaşdırılması [17].

Hesab edirik ki, qeyd edilən prinsiplərə riayət edilməsi təkcə Avropa regionu üçün deyil, digər regionlar üçün də keçərlidir və onların davamlı inkişafına imkan və zəmin yarada bilər. Davamlı inkişafa nail olmaq üçün bu prinsiplərin hamısına riayət edilməsinin əhəmiyyətini qeyd etməklə yanaşı, fikrimizcə, diqqət daha çox "regionların daha çox balanslaşdırılmış sosial-iqtisadi inkişafı və onların rəqabət qabiliyyətinin artırılması vasitəsilə ərazi harmoniyasının təmin edilməsi"nə və

“şəhər funksiyalarının yaratdığı inkişafın təşviqi və şəhər və kənd arasında əlaqələrin təkmilləşdirilməsi”nə yönəldilməlidir.

F.J.Berova, A.X.Dumanova və M.L.Yaxutlova davamlı inkişafın aşağıdakı üç prinsipini fərqləndirirlər [18]:

1) iqtisadiyyat və ətraf mühit arasında tarazlığın təmin edilməsi, yəni, istehsal və ya digər təsərrüfat fəaliyyəti ilə məşğul olan insanlar ətraf mühiti məhv etməyi dayandırdıqda belə bir inkişaf dərəcəsinə nail olmaq olar;

2) iqtisadi inkişafı təmin edən resurslardan əhalinin maraqları naminə maksimum istifadəni nəzərdə tutan, iqtisadi və sosial sahələr arasında insani ölçüdə qəbul edilən tarazlığın təmin edilməsi;

3) təkcə indi yaşayanların deyil, həm də resurslara bərabər hüquqlara malik olan bütün gələcək nəsillərin maraqlarına uyğun olan inkişafla bağlı vəzifələrin həlli.

Hesab edirik ki, 1-ci prinsipin dəqiqləşdirilməsinə ehtiyac vardır: yəni “istehsal və ya digər təsərrüfat fəaliyyəti ilə məşğul olan insanlar ətraf mühiti məhv etməyi dayandırdıqda” heç də həmişə, “iqtisadiyyat və ətraf mühit arasında tarazlığın təmin edilməsi” mümkün olmaya bilər.

BMT tərəfindən davamlı inkişafın məqsədləri elan edilsə də [1], hələ də bəzi dövlətlər bu istiqamətdə gərəkən fəaliyyətləri həyata keçirməkdə ya gecikirlər və ya maraqlı görünmürlər, ya da dövlətlər bu sahədə müvafiq islahatların aparılmasında gecikirlər. Bunu nəzərə alaraq BMT-nın İqtisadi və Sosial Şurası 2018-ci ilin iyul ayında Dövlət İdarəçilik üzrə Ekspertlər Komitəsinin (CEPA) hazırladığı davamlı inkişaf üçün səmərəli idarəetmənin aşağıdakı prinsiplər toplusunu (11 prinsip) təsdiq etmişdir [23]:

**1. Bacarıq.**

Öz funksiyalarını səmərəli şəkildə yerinə yetirmək üçün qurumlar səlahiyyətlərinə daxil olan məsələlərlə səmərəli məşğul olmaq üçün kifayət qədər təcrübəyə, resurslara və alətlərə malik olmalıdırlar.

**2. Sağlam siyasətin qurulması.**

Nəzərdə tutulan nəticələrə nail olmaq üçün dövlət siyasətləri bir-biri ilə əlaqələndirilməli, fakta, ağıla və sağlam məntiqə tam uyğun olaraq əsaslandırılmalıdır.

**3. Əməkdaşlıq.**

Ümumi maraq doğuran problemləri həll etmək üçün hökumətin bütün səviyyələrindəki və bütün sektorlardakı qurumlar eyni məqsəd və nəticələrə nail olmaq üçün qeyri-dövlət subyektləri ilə birlikdə və birgə işləməlidirlər.

**4. Dürüstlük.**

Dövlət qulluqçuları ictimai maraqlara xidmət etmək üçün öz xidməti vəzifələrini vicdanla, ədalətli və əxlaqi prinsiplərə uyğun şəkildə yerinə yetirməlidirlər.

**5. Şəffaflıq.**

Hesabatlılığı və ictimai nəzarəti təmin etmək üçün qurumlar öz funksiyalarını yerinə yetirərkən açıq və səmimi olmalı və yalnız qanunla müəyyən edilmiş xüsusi və məhdud istisnalar şərti ilə məlumat əldə etməyə kömək etməlidirlər.

**6. Müstəqil nəzarət.**

Nəzarət agentlikləri hökumətə inamı qorumaq üçün fəaliyyətlərində ciddi peşəkar mülahizələrə əsaslanmalı, başqalarından asılı olmadan və onların təsirinə məruz qalmadan hərəkət etməlidirlər.

**7. Heç kəsi geridə qoymamaq.**

Bütün insanların öz potensiallarını ləyaqət və bərabərliklə həyata keçirə bilmələrini təmin etmək üçün dövlət siyasəti cəmiyyətin bütün təbəqələrinin, o cümlədən ən yoxsul və həssas təbəqələrin və ayrı-seçkiliyə məruz qalanların ehtiyaclarını və istəklərini nəzərə almalıdır.

**8. Qeyri-diskriminasiya.**

Hamı üçün insan hüquqlarına və əsas azadlıqlarına hörmət etmək, qorumaq və təşviq etmək üçün dövlət qulluğuna çıxış irqindən, rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və ya digər əqidəsindən, milli və ya sosial mənşə, əmlak, doğum, əlillik və ya digər vəziyyətdən asılı olmayaraq, ümumi bərabərlik şərtləri əsasında təmin edilməlidir.

**9. İştirak.**

Səmərəli bir dövlətə malik olmaq üçün bütün mühüm siyasi qruplar birbaşa onlara təsir edən məsələlərdə fəal iştirak etməli və siyasətə təsir imkanlarına malik olmalıdırlar.

**10. Subsidiarlıq.**

Bütün insanların ehtiyaclarına və istəklərinə cavab verən hökuməti təşviq etmək üçün mərkəzi orqanlar yalnız daha orta və ya yerli səviyyədə səmərəli şəkildə yerinə yetirilə bilməyən vəzifələri yerinə yetirməlidirlər.

**11. Nəsillərarası bərabərlik.**

Hamı üçün rifah və həyat keyfiyyətini təşviq etmək üçün qurumlar bugünkü nəslin qısamüddətli ehtiyacları ilə gələcək nəsillərin uzunmüddətli ehtiyaclarını balanslaşdıran inzibati aktlar yaratmalıdırlar.

Həyata keçirilməsi könüllü xarakter daşıyan bu prinsiplərin irəli sürülməsində məqsəd 2030-cu ilə qədər davamlı inkişafa nail olmaq üçün həm beynəlxalq, həm də milli səviyyədə idarəetmə imkanlarını və səylərini gücləndirməkdir.

Fikrimizcə, həm milli, həm də beynəlxalq səviyyədə davamlı inkişafa nail olmaq üçün qeyd edilən prinsiplərə riayət edilməsi, onların real həyatda tətbiqi gözlənilən səmərəni verə bilər. Ancaq bu prinsiplərin deklorativ xarakter daşıdığı, həyata keçirilməsinin real, ağlabatan yollarının göstərilməməsi nəzərə alınarsa, onlara hamılıqla riayət ediləcəyi inandırıcı görünmür.

Fikrimizcə, beynəlxalq səviyyədə davamlı inkişafa nail olmaq üçün ilk növbədə milli səviyyədə davamlı inkişafa nail olmaq lazımdır. Ona görə də, elə prinsiplər irəli sürülməlidir ki, onları milli səviyyədə həyata keçirmək mümkün olsun və dövlətlər bunda maraqlı olsunlar. Əgər dünyada müxtəlif dövlət quruluşlarına (demokratik, avtoritar, monarxiya) rast gəlindiyi nəzərə alınarsa, əminliklə demək olar ki, hələlik hamı tərəfindən davamlı inkişafın birmənalı qarşılanacaq prinsiplərini müəyyən etmək mümkün deyildir. Məsələn, “Əməkdaşlıq”, “Müstəqil nəzarət”, “Heç kəsi geridə qoymamaq” və “Qeyri-diskriminasiya” prinsipləri müxtəlif quruluşlara malik olan bütün dövlətlər tərəfindən eyni şəkildə qəbul edilə bilərmi?

Davamlı inkişafa nail olmaq üçün hər bir ölkədə mövcud olan sosial-iqtisadi, siyasi, ekoloji vəziyyət və onların dəyişmə meyli nəzərə alınmaqla, reallığa uyğun, əsaslandırılmış prinsiplər müəyyən edilməli, onların həyata keçirilməsi üçün uzunmüddətli, ardıcıl, əsaslandırılmış tədbirlər hazırlanıb reallaşdırılmalıdır. Hesab edirik ki, aşağıda təkilif edilən prinsiplərə riayət edilməsi milli səviyyədə (onların məcmusu-beynəlxalq səviyyədə) davamlı inkişafa nail olmağa imkan və zəmin yarada bilər:

1.Milli iqtisadiyyatın inkişafının prioritet istiqamətlərinin müəyyən edilməsi, bu məqsədə çatmaq üçün ölkədə mövcud olan iqtisadi resurslardan səmərəli istifadə imkanlarının müəyyən edilməsi və həyata keçirilməsi prinsipi.

2. Xarici ticarət əlaqələrinin təşkili və həyata keçilməsi ilə bağlı siyasətin mütləq və nisbi üstünlük konsepsiyasına əsaslanması prinsipi. Xarici ticarətdə bu konsepsiyaya üstünlük verilməsi tərəfdaş dövlətlərin ticarətdən qarşılıqlı mənfəət əldə etmələrinə imkan yaratmaqla yanaşı, onların iqtisadi inkişafına və əhalinin müxtəlif məhsulları daha əlverişli şərtlərlə əldə etmələrinə imkan yarada bilər.

3. Xarici iqtisadi əlaqələrdə qarşılıqlı mənfəətin nəzərə alınması prinsipi. Bu prinsipi xammal ixrac edən ölkələr, daha çox isə - onların əsasında hazır məhsul istehsal edən ölkələr-nəzərə almalıdırlar. Bu prinsipə hamılıqla riayət edilməsi həm tərəfdaş ölkələrin hər birinə, həm də dünya çapında davamlı iqtisadi inkişafa önəmli töhfə verə bilər.

4. Ölkədə mövcud olan təbii sərvətlərdən həm mövcud əhalinin, həm də gələcək nəsillərin maraqları nəzərə alınmaqla səmərəli istifadə edilməsinə yönəldilmiş sosial-iqtisadi siyasətin həyata keçirilməsi prinsipi.

5. İrqindən, dinindən, dilindən, cinsindən, siyasi baxışlarından və s. asılı olmayaraq hər bir vətəndaşına daha firavan yaşamaq üçün ölkədə mövcud olan iqtisadi imkanların yaratdığı şəraitdən heç bir diskriminasiyaya uğramadan, bərabər şərtlərlə faydalanmaq imkanı yaratmaq prinsipi.

6.İnsanların təbii, fundamental hüquq və azadlıqlarının (yaşamaq, işləmək, mənzil, istirahət, təhsil, səmərəli tibbi xidmət almaq, söz azadlığı və s.) təmin olunması prinsipi. Bu pinsipin bütün elementlərinin təmin oluması problematik görünsə də, hər halda istək olsa müəyyən müddət ərzində həyata keçirilməsi mümkündür.

7. Təhsil almaq istəyən hər bir vətəndaşın təhsilə əlçanlılığı prinsipi.

8. Yoxsulluğun səviyyəsinin aşağı salınması üçün aztəminatlı əhaliyə dövlət tərəfindən müvafiq maddi yardımların göstərilməsi, əməkhaqlarının ölkədə mövcud olan inflyasiya səviyyəsinə uyğun mütəmadi olaraq indeksləşdirilməsi prinsipi.

9. Dövlət idarəçiliyinin, təsərrüfat-istehsal fəaliyyətinin həyata keçirilməsində və birgəyaşayış qaydalarının müəyyən edilməsində qanunun aliliyi, insan haqlarının qorunması prinsiplərinə riayət edilməsi, hər bir vətəndaşa azad şəkildə öz rəyini bildirmək imkanının yaradılması prinsipi. Bu prinsiplərə riayət edilməsi vətəndaşların dövlətə inamını artırmaqla yanaşı, onları ölkənin davamlı inkişafı naminə öz potensiallarından daha səmərəli istifadə etməyə sövq edə bilər.

10. Təsərrüfat-istehsal, eləcə də, xidmətlərlə bağlı fəaliyyət həyata keçirilərkən ekologiyaya mənfi təsirlərin minimuma endirilməsi prinsipi. Bu prinsiplərə hamılıqla riayət edilməsi nəinki milli, eləcə də, qlobal səviyyədə ekoloji mühitin yaxşılaşdırılmasına imkan yarada bilər.

11. Qlobal miqyasda davamlı inkişafa nail olmaq üçün dövlətlərin bir-birinə qarşılıqlı dəstək verməsi prinsipi. Müasir şəraitdə bu prinsipin hamılıqla nəzərə alınması o qədər də mümkün görünmür. Ancaq regional iqtisadi inteqrasiya birlikləri çərçivəsində buna nail olmaq mümkündür.

Fikrimizcə, təklif olunan prinsiplərin həyata keçirilməsi siyasi quruluşundan asılı olmayaraq hər bir dövlət üçün heç bir çətinlik yaratmamalıdır. Bu prinsiplərin həyata keçirilməsi həm milli, həm də qlobal miqyasda davamlı inkişafa nail olmaq üçün imkan və zəmin yarada bilər.

## *Nəticə*

Davamlı inkişafa nail olmaqda hər bir dövlətin əsas məqsədi həm mövcud olan, yaşayan əhalinin, həm də gələcək nəsillərin tələbatlarının, istəklərinin, ehtiyaclarının mümkün qədər tam ödənilməsinə nail olmaqdan ibarətdir. Qlobal miqyasda davamlı inkişafa nail olmaq üçün ilk növbədə milli miqyasda belə inkişafa nail olmaq lazımdır. Milli miqyasda davamlı inkişafın təmin edilməsi bir sıra prinsiplərin davamlı, ardıcıl həyata keçirilməsi sayəsində mümkün ola bilər. Bu prinsiplər müəyyən edilərkən hər bir ölkədə mövcud olan sosial-iqtisadi, siyasi və ekoloji mühit nəzərə alınmalıdır. Fikrimizcə, bu məqalədə irəli sürülən prinsiplərin həyata keçirilməsi milli miqyasda davamlı inkişafa imkan və zəmin yaratmaqla yanaşı, qlobal miqyasda belə inkişaf üçün münbit şərait yarada bilər.

## ƏDƏBİYYAT


1. Цели в области устойчивого развития. https://www.un.org/sustainabledevelopment/ru /sustainable-development-goals/. Официальный саут ООН.
2. Что такое концепция устойчивого развития и почему крупному бизнесу стоит обратить на неё внимание? https://globalccm.com/sustainabledevelopment
3. Володичева, Е.З., Яшалова, Н.Н. Сущность и содержание категории “устойчивое развитие». https://cyberleninka.ru/article/n/suschnost-i-soderzhanie-kategorii-ustoychivoe-razvitie / viewer
4. Гусманов, У.Г., Кликич, Л.М. и др. Устойчивое развитие сельских территорий в Республике Башкортостан / Под ред. Гусманова У. Г., Кликич Л.М. – Уфа: Башкирский ГАУ, 2009. – 163 с.
5. Бабурин, С.Н., Мунтян, М. А., Урсул, А. Д. Глобализация в перспективе устойчивого развития / С.Н Бабурин, М.А.Мунтян, А.Д. Урсул. М.: Магистр: ИНФРА-М, 2011. 496 с.
6. Клейменова, А. С. Концепция устойчивого развития: новая социально-экономическая парадигма / А. С. Клейменова // Вестник ТГУ. – 2008. – №10. – С. 354-359.

7. Юрков, Д.В. Методологические подходы к обеспечению устойчивого развития территории / Юрков, Д.В. // Экономика и управление народным хозяйством. – №6(151). – 2017. – С. 13 -19.
8. Порохин, А.В., Порохина, Е.В., Соина-Кутищева, Ю.Н., Барыльников, В.В. Устойчивость как определяющая характеристика состояния социально-экономической системы / А. В. Порохин, Е. В. Порохина, Ю. Н. СоинаКутищева, В. В. Барыльников // Фундаментальные исследования. – 2014. – № 12-4. – С. 816-821
9. Лексин, В.Н., Порфирьев, Б.Н. Социально-экономические приоритеты устойчивого развития Арктического макрорегиона России / В.Н.Лексин, Б.Н.Порфирьев // Экономика региона. - 2017. - Т. 13. -Вып. 4. - С. 985 - 1004.
10. Шарыпов А.А. Сущность концепции устойчивого развития. https://spravochnick.ru /filosofiya/koncepciya_ustoychivogo_razvitiya/
11. Устойчивое развитие: концепция, принципы, цели. https://csrjournal.com/ustojchivoe-razvitie-koncepciya-principy-celi
12. Пустохина Н.Г., Валиев В.Н. Концепция устойчивого развития: основные положения http://www.iuggu.ru/download/2015-2-Pustohina.pdf
13. Моисеев, А.Д., Нарижний, И.Ф. Сущность устойчивого развития экономических систем. http://cscb.su/n/021901/021901006.htm.
14. Олейникова, А. Международные принципы устойчивого развития. https://unecon. Ru /sites/ default/files/oleynikova_.pdf
15. Шакиров А.Д. О концепции устойчивого развития и ее принципах. https: //kpfu. ru/portal/docs/F_1745964663/153_1_gum_24.pdf
16. Доклад Конференции Организации Объединенных Наций по окружающей среде и развитию, Рио-де Женейрская деклерация по окружающей среде и развитию. A/CONF.151/26/Rev.1 (V.1).-URL:htpp://www.un.org/russian /documen/ deklarat/ riodecl. htm.свободный.
17. Основополагающие принципы устойчивого пространственного развития Европейского континента. Документ подготовлен Комитетом Старших должностных лиц. Ганновер, 7-8 сентября 2000 г. https://rm.coe.int/168070018c
18. Берова, Ф.Ж., Думанова, А.Х., Яхутлова, М.Л. Концепция устойчивого развития и его основные принципы. Экономические науки 2012 12(97), стр.127-130. 0201212/201212_127.pdf
19. Duran, C.D., Gogan, L.M., Artene, A., Duran, V. (2015). The components of sustainable development - a possible approach / C. D. Duran et al. // Procedia Economics and Finance. – 2015. – № 26. – С. 806-811.
20. Vare, P., Scott, W. Learning for a change exploring the relationship between education and sustainable development / P. Vare, W. Scott // Journal of Education for Sustainable Development. – 2007. – № 1. – С. 191- 198.
21. Sterling, S. Learning for resilience, or the resilient learner? Towards a necessary reconciliation in a paradigm of sustainable education / S. Sterling // Environmental Education Research. – 2010. – №16. – С. 511-528.
22. Marin, C., Dorobanțu, R., Codreanu, D. & Mihaela, R. The Fruit of Collaboration between Local Government and Private Partners in the Sustainable Development Community Case Study: County Valcea / C. Marin, R. Dorobantu et al. // Economy Transdisciplinarity Cognition. – 2012. – №2. – С. 93–98
23. Principles of Effective Governance for Sustainable Development. Unitet Nations. Committee of Expertis on Publik Administration. SUSTAİNABLE DEVELOPMENT GOALS. https://www.sdg16hub. org /system/files/202008/ booklet% 20% 20Principles% 20 of%20 Effective%20 Governance%20 for% 20 Sustainable%20Development.pdf

***Малик Мариф оглы Мурсалов***
***Докторант Азербайджанского Государственного Университета Нефти и Промышленности***

**Устойчивое развитие: суть и принципы**

***Резюме***

**Целью исследования является**: определение сущности устойчивого развития и выявление принципов, влияющих на него.

**Методология исследования** – системный подход, методы сравнительного анализа.

**Результаты исследования** – дана новая дефиниция, более полно выражающая сущность устойчивого развития, предложены принципы, позволяющие и создающие основу для достижения устойчивого развития.

**Практическая значимость исследования** - результаты исследования и выдвинутые предложения могут быть использованы для более объективного определения сущности устойчивого развития, а также при разработке мероприятий по достижению устойчивого развития.

**Оригинальность и научная новизна исследования** - обоснована необходимость более полного выражения сущности устойчивого развития, дана новая дефиниция понятия «устойчивое развитие», предложены принципы, которые необходимо реализовать для достижения устойчивого развития.

***Ключевые слова: устойчивое развитие, сущность, цель, принципы, значимость.***

***Malik Marif Mursalov***
***Doctoral student of Azerbaijan State University of Oil and Industry***

**Sustainable development: essence and principles**

***Summary***

**The purpose of the study is:** to determine the essence of sustainable development and to identify the principles that affect it.

**Research methodology** - a systematic approach, methods of comparative analysis.

**Results of the study** - a new definition is given that more fully expresses the essence of sustainable development, principles are proposed that allow and create the basis for achieving sustainable development.

**The practical significance of the study** - the results of the study and the proposals put forward can be used to more objectively determine the essence of sustainable development, as well as in the development of measures to achieve sustainable development.

**The originality and scientific novelty of the research** - the need for a more complete expression of the essence of sustainable development is substantiated, a new definition of the concept of "sustainable development" is given, the principles that need to be implemented to achieve sustainable development are proposed.

***Key words: sustainable development, essence, goal, principles, significance.***